UOT 18.07

***Elfanə Qasımova***
***fəlsəfə üzrə fəlsəfə doktoru, dosent***
***Azərbaycan Dövlət İqtisad Universiteti***
***AZ1001, Bakı, İstiqlaliyyət küç.6***
***E-mail*: qasimova_elfana@mail.ru**

# MÜASİR DÖVRDƏ DİZAYNERİN PEŞƏ FƏALİYYƏTİNİN XÜSUSİYYƏTLƏRİ

**Xülasə:** Müasir cəmiyyət peşəkar dizayn kadrlarının keyfiyyətli hazırlığına böyük ehtiyac duyur və təhsil müəssisələri qarşısında ciddi tələblər qoyur. Məqalədə dizaynerdə layihə təfəkkürü probleminin qoyuluşu və dizaynerin peşə fəaliyyəti üçün mühüm əhəmiyyət kəsb edən əsas meyarlar araşdırılır. Dizaynerin peşə xüsusiyyətləri müəyyən təkamül dövrünü keçirərkən insanların bədii-estetik zövqünü oxşama üçün böyük yaradıcı şəxsiyyətlərə məxsus xüsusiyyətləri əks etdirir.

**Açar sözlər:** dizayner fəaliyyəti, adaptasiya prosesi, peşə təfəkkürü, layihə təxayülü, innovasiya fəaliyyəti, kreativ hazırlıq.

Son tədqiqatlar sayəsində əldə edilmiş ümumiləşdirmələr deməyə əsas verir ki, dizayn bu gün kompleks fənlərarası layihə - bədii fəaliyyətdir. Bu kontekstdə “dizayner fəaliyyəti” anlayışının mahiyyətinin dərk edilməsi vacib problemlərdən biridir. Dizayner fəaliyyət subyekti kimi yaradıcı fəaliyyət subyekti olub öz yaradıcılığında layihələndirmə prosesini, bu prosesdə insan fəaliyyətinin müxtəlif sahələrində - texniki, mühəndis konstruksiyaetmə, texnologiya, iqtisadiyyat, sosiologiya, incəsənət sahələrindəki nailiyyətləri birləşdirir. Lakin onun fəaliyyətinin başlıca leytmotivi kamil estetik və yüksək səviyyəli məmulatlar yaratmaqdır.

Dizaynerin peşə fəaliyyətinin obyektləri sənaye məhsulları, nəqliyyat vasitələri nümunələri, mədəni-məişət təyinatlı predmetləridir. Sənaye məhsullarının yeni nümunələrinin yaradılmasına, nəzəri, tarixi, mədəni, mühəndis-texniki, yaradıcı və digər aspektlərdə dizaynın inkişafının əsas istiqamətlərinin təhlilinə yönəlmiş bu nümunələri estetik keyfiyyətlərinin təmin etməlidir. Dizayner aşağıdakı peşə fəaliyyəti növlərini yerinə yetirə bilər: analitik, layihə, eksperimental-tədqiqat, istehsalat idarəetmə.

Bu kontekstdən çıxış edərək bir dizaynerin fəaliyyətinin eksperimental – tədqiqat tərifinə diqqət yetirməyi məqsədəuyğun sayırıq. Burada eksperiment anlayışının tərifinə diqqət yetirmək və onun mümkün tərifini vermək yerinə düşərdi. Eksperiment (lat. – exsperimentum – yoxlama, təcrübə) elə bir idrak metodudur ki, onun köməkliyi ilə nəzarətdə olan və idarə edilən şəraitdən təbiət və cəmiyyət hadisələri öyrənilir. (1)

Laboratoriya eksperimenti eksperimentin formalarından biridir. Belə eksperiment xüsusi hazırlanmış otaqda (laboratoriya) kənar faktorların təsirliyini maksimum məhdudlaşdırmaq məqsədilə aparılır. Laboratoriya eksperimenti nəzarətdə qalan eksperimentdir, bunun gedişində eksperimentator onun şərtlərini müəyyənləşdirmək və dəyişmək imkanına malik olur. Peşə fəaliyyətinə hazırlığın struktur xarakteristikalarından və formalaşmanın əsas meyarlarından çıxış etsək dizaynerin peşə mədəniyyətinin formalaşmasında praktiki eksperimentin yeri və rolunu müəyyən etmək mümkündür.

Dizaynerin fəaliyyətinin struktur peşə hazırlığının dörd komponentini göstərmək olar: motiv hazırlığı, nəzəri hazırlıq, praktiki hazırlıq, kreativ hazırlıq. Bizcə, eksperimentin sadaladığımız son iki struktur komponentlərin ayrılmaz hissəsidir, buna görə, biz əsas diqqəti bunun üzərində cəmləşdirəcəyik. Praktiki hazırlıq müəyyən peşə qabiliyyətinin – koqnitiv, kommunikativ, konstruktiv və təşkilatı bacarıqların və vərdişlərin mövcudluğunu nəzərdə tutur.

Kreativ peşə fəaliyyətinin hazırlığı peşə fəaliyyətində özünümüəyyənliyə, yaradıcı fəallığa səy göstərmədə və yaradıcı fəaliyyət təcrübəsinin olmasında təzahür edir. Peşəyə hazırlığının mahiyyəti və strukturu barədə müəyyən təsəvvürləri nəzərə alaraq ədəbiyyatda belə bir təqribi mütəxəssisin professioqramı təklif olunur

-mütəxəssis şəxsiyyətin peşə-humanist istiqaməti

-peşə bilikləri, peşə bacarıqları

-şəxsiyyətin peşə əhəmiyyəti kəsb edən keyfiyyətləri. (2)

İrəli sürülən bu istiqamətlərin əhəmiyyətini qətiyyən azaltmayaraq bu təsnifata peşə potensialının inkişafı istiqamətləri anlayışının əlavə edilməsini məqsədəuyğun sayırıq. Bizə elə gəlir ki, bu məqamın əlavə edilməsi ilə professioqramın struktur komponentlərinin məzmun xarakteristikaları konkret peşə növünə hazırlığın meyarları və səviyyələri daha dolğun aşkarlanar.

Dizayner fəaliyyəti üçün mühüm əhəmiyyət kəsb edən əsas meyarların da nəzərdən keçirilməsi problemin əhatəli həllinə kömək etmiş olardı.

-Motivasiya hazırlığı: mütəxəssisin peşə fəaliyyəti dəyərlərini şüurlu şəkildə qəbul edilməsi; seçilmiş peçə fəaliyyəti ilə bağlı niyyətlər və meyillər; motivasiya kompleksində gələcək peşə fəaliyyətinin effektiv həyata keçirilməsini təmin edən motivləri üstünlük təşkil etməsi.

-Nəzəri hazırlıq: konkret regionda sosial işin spesifikasını əks etdirən peşə biliklərinin olması; inkişaf etmiş peşə təfəkkürü, nəzəri və praktik fəaliyyətdə təzahür edən sosial intellekt.

-Kreativ hazırlıq: peşə fəaliyyətində fəal mövqenin əhəmiyyətinin, vacibliyinin qəbul edilməsi. Bu fəaliyyət növü müstəqillikdə, psixoloji və yaradıcı fəaliyyətdə, peşə biliklərini mənimsəyən yaradıcı fəallıqda təzahür edir.

-Praktiki hazırlıq: koqnitiv, kommunikativ, konstruktiv və təşkilatı bacarıqların formalaşması dərəcəsi.

İlk baxışda təqdim olunan bu strukturda hazırlıq meyarları işində eksperiment peşə mədəniyyətinin formalaşmasında aparıcı mövqe tutmur, lakin dizayner fəaliyyətində o, əsas funksiyalardan birini oynayır. Bu fəaliyyət növü kreativ təfəkkürün inkişafına, layihə vəzifələrinə şablon yanaşmamağa, vacib obyektlərin yeni nümunələrin eksperiment yolu ilə tapmağa kömək edir. Daha önəmlisi budur ki, kreativ hazırlıq assosiativ – obrazlı dizayner təfəkkürünü formalaşdırır.

Əslində tələbə dizayner eksperimentlə bədii və ixtisaslaşdırılmış fənlərdəki ideyalarla tez-tez rastlaşır. Hər bir dizaynerin real fəaliyyətinin əsasında eksperiment yerləşir. Eksperimentsiz heç bir yaradıcılıq növü, o cümlədən dizayn təcrübəsi mümkün deyil. Yaradıcı dizayner öz tələbəsinə "eksperiment aparmaq ruhunu" aşılamalıdır. (3)

Praktiki və laboratoriya məşğələlərində eksperimentin əsasını bu və ya digər bədii-layihə situasiyasında müəllifin həlli konsepsiyasından istifadə, nəticənin əldə edildiyi vasitələrin izahı təşkil edir. Eksperimentin obyekti dizayn yaradıcılıq fəaliyyətinin istənilən obyekti ola bilər. Bütün hallarda peşəkarlığın artırılmasından, müasir tələblərə uyğun inkişafından söhbət gedir. Lakin bu sahədə problem az deyil. Ümumiyyətlə götürsək, potensialın reallaşması bir çox faktorlardan asılıdır, lakin şəxsiyyətin peşəyə görə təşəkkülünün aparıcı faktoru fəaliyyətlə determinə olunmuş, səbəblənmiş tələblər sistemidir, bu tələblərin yerinə yetirildiyi prosesdə yeni xassələr və keyfiyyətlər üzə çıxır.

Lakin peşəkarlığın inkişafı prosesi eyni zamanda həm təkmilləşmə, həm də destruksiyadır. Təcrübə də göstərir ki, heç də hər bir istənilən peşə fəaliyyəti şəxsiyyəti inkişaf etdirmir, elə çox peşə əməyi növləri var ki, şəxsiyyəti zənginləşdirmir, əksinə onu deformasiya edir. (4) Belə düşünmək mümkündür ki, destruksiyaya qarşı yalnız insanın daxilindəki resurslar hesabına qarşı durmaq olar. Bizə elə gəlir ki, S.A.Drujilovun təklif etdiyi "peşə inkişafının fərdi resursu" anlayışı problemin mahiyyətinə aydınlıq gətirə bilər. Bu anlayışın irəli sürülməsi, bir tərəfdən, insanın real imkanlarını, onu peşəyə hazırlığını, digər tərəfdən hələlik realizə olunmamış peşə xüsusiyyətlərini, daxili ehtiyatları özündə ehtivaedir. (5)

Belə bir məsələni də qeyd edək ki, inkişafın məhsulu olan peşəkarlıq özü insan həyatının sonrakı gedişinin, onun peşə inkişafının faktoru olur. Bu kontekstdə qeyd etmək istərdik ki, insanın peşəkarlaşmasının şərti psixoloji peşə adaptasiyasıdır. Ədəbiyyatda psixoloji peşə adaptasiyası deyərkən "insan – peşə mühiti" sistemində dinamik tarazlığın yaardılması prosesi və nəticəsi başa düşülür. Adaptasiya prosesi şəxsiyyətin peşə inkişafı prosesidir. Bu kontekstdə peşə adaptasiyasının iki mühüm cəhəti nəzərdə tutulur.

-adaptiv davranış (peşə fəaliyyəti)

-peşə inkişafı (şəxsiyyətin və peşə sahibi kimi inkişafı). Adaptiv davranış zamanı insanda şəraitə uyğunlaşmaq, bəzən də xarici şəraitə əvvəlcədən verilmiş tələblərə, qaydalara, normalara tabeçilik üstünlük təşkil edir. Mütəxəssis bir qayda olaraq, öz enerji məsrəflərinə (fiziki, emosional, intellektual)

qənaət etmək prinsipini rəhbər tutur, belə halda o, əsasən, əvvəllər əldə etdiyi peşə vəzifələrinin alqoritmik həllindən istifadə edir. Peşədə özünüinkişaf davranışı prosesində peşədə özünü ifadə etmək, özünü reallaşdırmaq üstünlük təşkil edir. İnsanı maraqlandıran amil budur ki, o, gündəlik həyatın yeknəsəkliyindən kənar olsun, öz əməyinin bəhrəsini görsün. Belə bir qabiliyyət sahibi peşə situasiyasını dəyişməyə qabildir. Lakin hər bir adaptasiya psixi fəallığın təzahürüdür. Adaptiv davranış zamanı peşə adaptasiyası prosesi mühitin və fəaliyyətin tələblərinə uyğun insanın özünün dəyişməsi ilə bağlıdır.

Problemə psixoloji cəhətdən yanaşdıqda tədqiqatçı A.A.Reanın fikrinlə razılaşmaq lazım gəlir: hələ bilmək olmaz enerji və emosional zəmində yüngül başa gələn nədir: mühitin dəyişməsi, yoxsa insanın özünün dəyişməsi. Özünü fəal dəyişmə prosesi peşəyə uyğunlaşmaq prosesi insan şəxsiyyətinin dəyişməsi və inkişafı, onun peşəkarlığının təşəkkülü prosesi kimi cərəyan edə bilər. (6)

Bu kontekstdə peşəkarlığın psixoloji təşəkkülü problemi müasir tədqiqatlarda mühüm əhəmiyyət kəsb edir, müxtəlif konsepsiyaların formalaşmasına geniş intellektual imkanlar açır. Peşəkarlığın psixoloji mexanizmlərinin təşəkkülü cəmiyyətdə özünü doğrultmuş peşə modellərinin insan tərəfindən interiorizasiya edilməsi, peşə fəaliyyətinin konseptual modelinin qurulması və peşə mənlik şüurunun formalaşmasıdır. İnsanın peşəkarlaşmasının uğurlu şərti psixoloji peşə adaptasiyası və peşəkarın şəxsiyyətinin təşəkkülüdür. Bununla bağlı, biz, aşağıdakı konseptual modellərdən bəhs etmək istərdik. Araşdırılan modellər dizayner peşəsini formalaşdıran, onun xüsusiyyətlərini müəyyənləşdirən mühüm faktorlardır.

-Peşə mühiti modeli. Peşə mühitinə əmək və predmet obyektləri, əmək vasitələri, peşə vəzifələri, əmək şəraiti kimi komponentlər daxildir. Hər halda demək mümkündür ki, bu fenomenə mütəxəssisin daim qarşılıqlı münasibətdə olduğu zəhmətkeşləri də aid etmək olar. Göstərilən komponentlərə görə, insanın təsəvvürləri sistemi peşə mühitinin daxili, psixiki modelini təşkil edir.

-Peşə fəaliyyəti modeli. Burada obrazlı – anlayışlı-kəsərli psixiki model kimi nəzərdən keçirilən peşə fəaliyyətinin konseptual modeli nəzərdə tutulur. Bu fenomeni fəaliyyətin əsas daxili vasitəsi kimi nəzərdən keçirən tədqiqatçı Y.A.Klimov buraya insanın həyat təcrübəsini və xüsusi təhsil aldığı dövrdə əldə etdiyi biliklər, həmçinin fəaliyyət ərzində gələn məlumatları daxil edir. Peşə fəaliyyəti modeli fərdi şəkildə formalaşır. Eyni formada iki eyni konseptual model olmur, çünki hər bir professional, peşəkarın özünün unikal, şəxsi potensialı ilə şərtlənmiş fəaliyyət modeli mövcuddur, bu fəaliyyət növü ona fəaliyyətin fərdi üslubunu reallaşdırmağa imkan verir. Peşəkarlanma prosesində insanın fərdi, şəxsi və subyektiv xüsusiyyətləri inkişaf edir və peşəkar fəaliyyət modeli formalaşmaq yolu ilə məzmun-predmet və prossesual – texnoloji tərifinə adaptasiya olunur.

-Peşəkar insanın öz modeli. Peşəkarın şəxsiyyətinin təşəkkülü labüd olaraq peşə mənlik şüurunun formalaşması ilə bağlıdır, bu şüur forması insanın özü haqqında peşəkarlar cəmiyyətinin, birliyinin üzvü, peşə mədəniyyətinin, o cümlədən peşə birliyinə xas olan normaların, qaydaların, ənənələrin daşıyıcısı kimi təsəvvürü özündə ehtiva edir. Bu təsəvvürlər əsasında şəxsiyyət əmək prosesində qarşılıqlı təsirdə olduğu insanlarla öz münasibətlərini qurur. Bu təsəvvürlər sistemi və “Mən-konsepsiya insanın peşəkarlığını qazandığı gedişində dəyişir və dəqiqləşir. Bu barədə daha ətraflı məlumat toplamaq məqsədilə müəlliflərdən Reanın A.A., Kudaşevin A.R., Baranovun A.A. Şəxsiyyətin adaptasiya psixologiyası əsərinə müraciət olunması tövsiyə edilir.

Sosiomədəni məkanın layihələndirilməsinin estetik proses kimi cərəyan etməsində dizaynerin spesifik peşəkar təfəkkürü mühüm rol oynayır. (7) Qeyd edək ki, dizayner bir peşəkar kimi öz yaradıcılığında obyektlərin real obrazları ilə deyil, onların üslublandırılmış şərhi, hətta həmin obyektlərin simvolları ilə, işarələri ilə üzləşməli olur. Dizaynerlərin peşə mədəniyyətinin formalaşması zamanı dizayner fəaliyyətinin spesifikasını nəzərə almaqla xüsusi spesifik peşə təfəkkürünü inkişaf etdirmək vacibdir.

Peşə təfəkkürünün formalaşması peşə təhsili sistemində tərkib hissəsi kimi çıxış edir. “Peşə təfəkkürü” termini elmi dövriyyəyə XX əsrin ikinci yarısından daxil olmuşdur. Bunun ən mühüm səbəbi elmi-texniki inqilabın bütün ictimai əməyi intellektuallaşması olmuşdur. “Peşə təfəkkürü” analyışı iki mənada işlədilir. Bir mənada mütəxəssisin yüksək peşə-ixtisas səviyyəsi qeyd olunur, burada təfəkkürün keyfiyyət aspektini ifadə edən xüsusiyyətlərindən söhbət gedir. Başqa bir mənada, peşə fəaliyyətinin xarakteri və şərtlənən təfəkkürün xüsusiyyətlərini qeyd etmək istədiyi zaman burada predmet aspekti nəzərdə tutulur. Lakin “peşə təfəkkürü” anlayışı daha çox iki mənada istifadə olunur.

İntuitiv olaraq nəzərə gətirilir ki, mütəxəssisin təfəkkürünün bəzi xüsusiyyətləri ona peşə vəzifələrinin xüsusiyyətlərini yüksək ustalıq səviyyəsində: müəyyən predmet sahəsində tez, dəqiq, orijinal şəkildə həm ordinar, həm də qeyri-ordinar şəkildə yerinə yetirməyə imkan verən hal nəzərdə tutulur. Belə mütəxəssisləri adətən öz peşə sahəsində yaradıcı insanlar, öz fəaliyyət predmetini özünəməxsus şəkildə görən və rasional təfəkkürə, yenilikçiliyə, yenilik kəşfinə meyilli insanlar kimi xarakterizə edirlər.

Dizayner layihələndirmə prosesində məntiqi olaraq həyat tərzi ilə predmet mühitinin qarşılıqlı əlaqəsinə müdaxilə etməli olur, ona görə belə hal həm də təkcə mühit obyektlərinin dəyərliyinə deyil, həyat tərzinin formalaşmasında rol oynayan həyacanlı axının yaratdığı hadisələrə də müdaxilədir. Bu kontekstdə layihələndirməyə əsas impulsu verən məhz həyat tərzinin davamlı dəyərləridir.

Layihələndirmə prosesinin sosial-psixoloji əsası layihə təxayülüdür, yəni şüurun effektiv və simvolik proseslərinin elə bir qarşılıqlı əlaqəsidir ki, burada dəyər yaşantıları layihə obrazlarında ifadəsini tapır. Həmin obrazlar, əslində dəyər mahiyyətinə görə həyatın gələcək situasiyaları barədə dizaynerin niyyətidir, onun dünyagörüşündə insanı keçirdiyi həyacanlar əksini tapmışdır. Ona görə, hər cür layihələndirmə dizaynerin idealının reallaşdırılmasına yönəlmişdir. Hər halda dizayner dərk edir ki, psixoloji yaşantısız layihələndirmə mümkün deyildir. Layihələndirmə dizayneri o zaman qane edir ki, arzu edilən aləmin layihə obrazları reallaşmış olsun. (8)

Bədii layihələndirmənin yaradıcı mahiyyəti həyati dəyərlərin obrazlar vasitəsi ilə açılmasıdır. Layihələndirmənin mədəni yaradıcı fenomen kimi dərki üçün bilmək vacibdir ki, layihə obrazlarında üzə çıxan yeni dəyərlər yalnız bu obrazlar yaranandan və tənqidi süzgəcdən keçiriləndən sonra cəmiyyət bundan bəhrələnmiş olur.

Layihə təxayülü dizaynerin peşə bacarığının başlıca şərtlərindəndir. Lakin təxayül fenomenixüsusi yaradıcı məkana ehtiyac duyur, təxayülün geniş "işləməsi", eləcə də layihələndirmə üçün zəruri idraki imkanlar açıldığı belə bir məkan predmet mühitidir. "Predmet mühiti – həyat tərzi" və "predmet mühiti – mədəniyyət" fenomenlərinin konseptual dərki prosesində layihə təxayülünün yaradıcı məkanı haqqında təsəvvürlər formalaşmağa başlamışdır. () Bu idraki proses isə layihə mədəniyyəti konsepsiyasının meydana gəlməsini zəruri etmişdir.

Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, dizaynerin yaradıcılığının aparıcı qollarından biri layihələndirmə bacarığı və mədəniyyətidir. Dizaynda layihələndirmə mədəniyyəti – həm intellektual, həm də sosiomədəni kontekstdə - universal fəaliyyət tipi, müasir elmi-texniki tərəqqinin və ümumi intellektual mədəniyyətin göstəricisidir. İncəsənətin növü olmaqla dizayn yaradıcılığında layihələndirmə müəllifin bədii mənlik şüuru sayəsində reallaşır. Dizaynerin idealına görə bu prosesdə bədiilik, gözəllik və fayda başlıca meyarlar kimi çıxış edir.

Dizayn layihələndirilməsinə, hələ ilkin formalaşma mərhələsində utilitar obyektdə istehlak xassəsinin yaxşılaşdırılmasına bədii başlanğıc vermək niyyəti sayəsində ehtiyac yaranmışdır.

Dizaynerin yaradıcılığında layihələndirmənin fəaliyyət məqsədi həyat tərzi ilə predmet mühitinin qarşılıqlı əlaqəsinə müdaxilə etməkdir, bununla o, həm də təkcə mühit obyektlərinin mahiyyətinə deyil, həyat hadisələrinin və situasiyalarının dəyər mənasına təsir göstərmiş olur. Dizayner çalışır ki, keçmişdən miras qalmış və hazırkı yaxşı cəhətləri itirməyib öz ideyasını həyata keçirsin.

Layihə təxayülü layihə obrazlarında ifadəsini tapmış dəyər yaşantıları, şüurun affektiv və simvolik prosesləri qarşılıqlı əlaqə yaradır. Layihə obrazları isə, əslində, dəyər mahiyyətinə görə həyatın gələcək situasiyaları haqqında niyyətlərin məcmusudur. Buna görə də hər cür layihələndirmənin məqsədi layihənin reallaşdırılmasının təmin edilməsi mexanizmləri işlənməlidir, çünki bunsuz dizaynerin fəaliyyətində layihələndirmə öz mənasını itirmiş olur. Başqa sözlə, layihələndirmənin funksional məqsədi xəyalə gətirilən aləmin layihə obrazlarının reallaşdırılması deməkdir. Təsviri sənətdən və mistik ruhda köklənmiş seyirçilikdən fərqli olaraq, layihə hansısa həyat mühitinin arzuedilən vəziyyətinin irəlicədən düşünülmüş, duyulmuş obrazdır. Bədii layihələndirilmənin yaradıcı mahiyyəti həyati dəyərlərin obrazlarda aydınlaşması və təcəssüm tapmasıdır. Layihələndirmənin yaradıcı rolunu başa düşmək üçün layihə obrazlarında üzə çıxan yeni dəyərləri tənqid süzgəcindən keçirdikdən sonra cəmiyyətə təqdim etməli və yalnız bundan sonra onun reaksiyasını öyrənmək lazımdır.

Dizaynerin peşə qabiliyyətində təzahür edən təxayülün işləməsi üçün geniş layihələndirmə meydanı və imkanı vacibdir. Belə bir məkan predmet mühitidir. Dizaynerlərin predmet mühitinin, həyat tərzi və mədəniyyət anlayışlarının dərkinə müraciəti sonralar layihə təxayülünün yaradıcı məkanı barədə təsəvvürlərinin genişlənməsinə impuls vermişdir. Bu çağırışa cavab reaksiyası kimi layihə mədəniyyəti konsepsiyası işlənib hazırlanmışdır. Həmin konsepsiya layihə mədəniyyəti mövzularının nəzəri-praktiki problemlərin işlənməsi layihələndirmənin mədəniyyət yaratmağa və dəyişikliyə köklənməsi, mədəni dəyərlər sistemində dizaynın mədəniyyətşünaslıq problemi olaraq nəzərdən keçirilməsi, mühitin predmetləşmiş mədəniyyət, mədəniyyətin isə mənalı obraz mühiti kimi dərk olunması,dizaynın obraz həyatına meyl göstərməsi, layihə və siyasi mədəniyyətlərin münasibəti kimi problemlərin tədqiqinə araşdırmaçıların diqqətini cəlb etmişdir.

Müasir dizayn ədəbiyyatında layihə mədəniyyətinin aşağıdakı əsas tərkib hissələri araşdırılır.

Ekoloji dəyər əhəmiyyəti kəsb edən obrazları, layihələndirilən mühitin predmet məkanlarını özündə ehtiva edir, mühit incəsənətlərində, bədii layihə ideyalarında, məkan simvollarında təqdim olunan və müasirliklə səsləşən obraz anlayışı dəqiqləşdirilir.

-Obrazlı həyat: mühitdə davranış süjetləri, müxtəlif birliklərin üslubları, mühitə nəzərən onların "ekzistensial mətnləri" göstərilir.

-Aksioloji: mücərrəd şəkildə fikrə gətirilən dəyərlər, yaxud layihə mədəniyyətinin hissi, ya da ruhən nəzərə çarpan nemətləri, bunda layihə iştirakçılarının hamısının şüurunun aksiomatik vəziyyəti. Bu vəziyyətlər təxayülün layihə fəaliyyətinin təbii şəxsi reallaşdırılması üçün zəruri olan evristikvəziyyətlərdir.

-Konseptual: layihələndirmə subyektlərinin dəyər, həyati obraz mühiti oriyentasiyalarının ifadə edildiyi yaradıcı konsepsiyalar nəzərdə tutulur. Konsepsiyaların müxtəlifliyi layihə mədəniyyətinin elə bir nüvəsidir ki, cari layihə niyyətləri, ideyaları onun ətrafında qruplaşır. Konseptual nüvə layihə məmulatlarının bədii səviyyəsi ilə bağlı praktiki məsələlərin öyrənilməsini aktuallaşdırır və görülmüş işin real dəyərini özündə təsdiq edir. Hazırda dizayn yaradıcılığında ciddi öyrənilən bədii obraz problemi son nəticədə yeni mühitlərin, hadisələrin və proseslərin proobrazı funksiyasını yetirməyə köklənmiş və buna qadirdir.

Hazırda layihə mədəniyyətinin dərindən öyrənilməsini stimullaşdıran dizayn – konsepsiyalarforma müxtəlifliyi ilə fərqlənirlər. Məişət məmulatlarının dizayn – layihələndirilməsinə təsir edən regional sosial-mədəni və iqtisadi xarakteristikalardan asılı olaraq onların istehlakçının mühit obrazının ifadə olunması, eləcə də həmin mühitdə cərəyan edən proseslər sakinlərin həyat tərzindən asılı olaraq xeyli fərqlənir. Bu hal mədəni-məişət məmulatlarının obraz məzmununun yaradılmasını dizayn üçün çox çətinləşdirir, təklif olunan bədii layihə həllinin seçimində məsuliyyət tələb edir. Belə bir cəhət də unudulmamalıdır ki, utilitar predmetlərin obrazlarının mahiyyətinin istehlakçılara daha real şəkildə çatdırılması onun iqtisadiyyatda və cəmiyyətdəki dəyişikliklərə çevik reaksiya verməsi qabiliyyətininartırılması, daha dinamik sosial-mədəni tələbatlara və proseslərə tətbiqən onun yenidən konstruksiyasıçox vacib məsələdir. Bu prosesin mahiyyəti bundadır ki, mədəni-tarixi kontekstdə həyat tərzi üslubda təcəssümünü tapmalıdır. Daha bir məqam: müasir həyat tərzi bu gün keçmiş yüzilliklə müqayisədə müasir konseptual layihələndirmədə məna yaratmaq baxımından ölçüyə gəlməz dərəcədə rəngarəng bədii dəyərlərə malikdir.

Dövrümüzdə sadədə mürəkkəblik, kiçikdə bəşərilik və unudulmuşda aktuallığı açkar etmək meyli dizayn layihələndirilməsində bədii-estetik obrazına yeni üslub verir. Bu gün danılmaz faktdır ki, bədii-estetik obrazlıq dizaynı nüfuzlu edən xüsusi mədəniyyətdir. Onun yaradıcılığa ahəng verən xüsusiyyətləri funksional və iqtisadi parametrlərindən heç də az əhəmiyyət kəsb etmir.

Son illər keçmişin sərvətlərinin yenidən qiymətləndirilməsi və dərk edilməsi ideyasının səslənməsi təkcə peşəkar dizaynerlərin fəaliyyəti ilə bağlı deyil. Ümumiyyətlə, predmetlərin emosional- obrazlı məzmununa istehlakçıların da estetik münasibəti dəyişmişdir. Bunun təzahürünü predmet-məkan mühitinin dəyişilməsində də görmək mümkündür. Predmet-məkan mühitinin transformasiyası sosial- iqtisadi, mədəni-estetik və regional faktorlarla şərtlənir. Bu amillər öz növbəsində istehlakçının şəxsi tələbatlarına uyğun olaraq öz mühitini yaratmağa sövq edir. Təcrübə göstərir ki, bu gün fərdi layihələrin sayı xeyli artsa da yeni yaranmış məkanların "doldurulmasının" mürəkkəbliyi dəyişməz qalır. Mədəni- məişət mühitinə aidiyyəti olan dizayn-obyektlərin sayı çoxdur, halbuki, onların bədii məziyyəti məsələsi qənaətbəxş deyildir. Ona görə də, bu problemin həlli məişət məmulatlarının formaları probleminin həllindən, məişətin estetikləşməsindən və mədəniyyətdən asılıdır.

Bu bir daha deməyə əsas verir ki, dizayn dəqiq məqsədə yönəlmiş innovasiya fəaliyyətidir, bu məqsəd isə layihə vəzifəsi şəklində formalaşır. Layihələndirmə mədəniyyətinin funksiyası sadəcə layihə yaratmaqla bitmir. Layihələndirmə həmçinin ümumi məkanda həyata keçirilən layihə konsepsiyalarının ümumi təsvirinin dinamikası, layihə diskursu, istifadəçinin həyat tərzinə layihə təsirinin tənqidi idarə olunmasıdır, insanın həyat şəraitinin qlobal sosial-funksional və lokal tənzimlənməsidir, müxtəlif komplekslərə, ona estetik məqsədəuyğunluq dəyəri aşılamaqdır.

**Ədəbiyyat:**


1. Мошейко М.А. Экспериментация новейший философский словарь. Минск, «Книжный дом», 2001, 2000 с.
2. Формирование профессиональной культуры специалистов-дизайнеров методом практического эксперимента. https: // top-tehnoloqies.ru
3. Матвеева Т.В. Формирование профессиональной культуры специалистов-дизайнеров методом практического експеримента. //Современные наукоемные технологии. 2006, №8, с.61-63

4. Зеер Э.Ф. Психология профессий М. Академический проспект. Екатеринбург «Деловая книга»,2003, 320 с.
5. Дружилов С.А. Индивидуальный ресурс профессионального развития субъекта труда. //Международный журнал прикладных нарундаментальных исследований. 2010, №5, с.145-148
6. Реан А.А. Психологическая адаптация личности. Спб. Медицинская пресса, 2002, 352 с.
7. В.С.Чернявская, И.П.Поливанов, А.В.Судорина. – Стратечическое мышления будущего дизайнера в контексте психологии профессиональной востребованности. // Научно-метододический электронный журнал «Концепт» - 2012, №8 (август), с.76-80
8. Образ в дизайне. www.moskva-ipoteka.ru
9. Генисаретский О.И. Проблемы исследования и развития и проектной культуры. Автор.канд.работы. М., ВНИИТЭ, 1988, 37 с.

**Эльфана КасумоваОсобенности профессиональной деятельности дизайнера в современную эпоху**

**Резюме**

В данной статье автор раскрывает потребности в индустрии современного дизайнерского искусства. Причину в сложившейся ситуации, автор видит в нехватке профессиональных кадров в этой области. А чтобы решить эту проблему исследователь предлагает ряд идей и проектов для реализации в образовательных учреждениях. Также автор указывает ключевые факторы, которые способны развить дизайнерское дело. К тому же, автор статьи отмечает, что благоприятная социализация, залог совершенствования дизайнерского мышления.

**Ключевые слова:** дизайнерская деятельность, процесс адаптации, профессиональное мышление, проектное мышление, инновативная деятельность, креативная подготовка.

**Elfana Kasumova**

**Features of professional activities of the designerin the modern era**

**Summary**

In this article the author reveals the needs in the industry of contemporary design art. The reason for this situation, the author sees in the shortage of professional cadres in this area. And to solve this problem the researcher offers a number of ideas and projects for implementation in educational institutions. Also, the author indicates the key factors that are capable of developing a design case. In addition, the author notes that a favorable socialization is a pledge of improving design thinking.

**Keywords**: design activities, the adaptation process, professional thinking, project thinking, innovative and creative activities.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 19.10.2017 Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 26.10.2017Məqalənin çapa qəbul olunma tarixi: 24.11.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:fəlsəfə üzrə elmlər doktoru, professor Niyazi Mehdi ADMİU-nun Elmi Şurasının 21 dekabr 2017-ci il, 04 saylı qərarı ilə çap olunur**